XAVERİ, Aygun (2014). "Ehmed Yesevi ve Yunis İmre Şeirinin Tesevvüfi Qarşılaşdırılması". *Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması. 26-28 Mayıs 2014*. Eskişehir 2013 Türk Dünyası Kültür Başkenti Ajansı (TDKB). Eskişehir, ss.113-115 (http://bilgelerzirvesi.org).

Aygun XAVERİ*

# EHMED YESEVİ VE YUNİS İMRE ŞEİRİNİN TESEVVÜFİ QARŞILAŞDIRILMASI

XIII esrde Yeseviyye ideyaları seyyah dervişler vasitesile Anadolu erazisinde yayılmağa başlayır. Hacı Bektaş Veli ve Sarı Saltuq kimi ünlü mütesevvifler Yeseviyye ideyalarının Anadoluda genişlenib möhkemlenmesinde böyük könül ve ağıl şücaetleri gösterirdiler. Qerb türkleri arasında Ehmed Yesevinin en böyük varisi ise heç şübhesiz, bütün poeziyasının mayası semimiyyetden yoğrulan Yunus İmredir...

Ehmed Yesevi ile Yunus İmre arasında irs-varis elaqeleri "Divan"ın o hikmetlerinde eyanileşir ki, hemin hikmetler Ehmed Yesevinin ümumi yaradıcılığı kontekstinde en derin semimiyyet ve bundan dolayı yüksek poetiklik kesb edir. Yesevi bütün tebliği missiyanı bir terefe atıb, poeziyanı qelbinin en munis hisslerini özünde ifade eden duaya çevirdiyi anlarda

*Feda olsa sene canım,*
*Töker olsan menim qanım,*
*Men qulunam, sen sultanım,*
*Mene sen gereksen, sen* – [5, s. 321]

kimi axıcı, poetik baxımdan mükemmel nümune verir. Yunus İmre de eyni meqamda

*Eger meni qovuralar,*
*Külüm göye sovuralar,*
*Mezarımdan çağıralar*
*Mene seni gerek, seni* – [3, s. 28]

deyir. Yesevi ile Yunus İmre poeziyası arasındakı irs-varis elaqelerini çox şeyde izlemek olar: ilk növbede, her iki şairin eyni ilahi idealın ifadesine xidmet etmesinde. Lakin bele oxşarlıq daha çox onların mensub olduqları tesevvüfün nezeri-felsefi esaslarından da qaynaqlana

* Doç. Dr. Azerbaycan Milli Eğitimler Akademisi.

bilerdi. Türküstan piri ile Anadolu neğmekarını ferdi özünemexsusluq baxımından birleşdiren başlıca xüsusiyyet her iki şairin vüsalın terennümçüsü olmalarıdır. Ehmed Yesevi:

*Miskin Xace Ehmed canı,*
*Hem cövherdir, hem kanı.*
*Hepsi onun mekanı,*
*O lamekan içinde.* (5, s 305)
Yunus İmre:
*Men burda seyre dalmışken*
*Eceb sirre irdim axı!*
*Gelin siz de sizde görün,*
*Dostu mende gördüm axı!*
*Men de baxdım, men de görüm*
*Menim ile men olanı.*
*Varlığıma can verenin*
*Kimliyini bildim axı!* [3, s. 99]

Yesevide ilahi vüsaldan dolayı sevinc hissinin terennümü yalnız müeyyen ekstatik meqamlarda nezere çarpır ve dinden gelen ehkamın diqtesi yaranmaqda olan coşğunluğun qarşısını alır, çılğın qelb heyecanları soyuq mentiqe tabe etdirilir. Yunus İmrenin ise bütün poeziyası bu hissin terennümünden ibaretdir. Coşğunluq onun yaradıcılığının seciyyevi ceheti kimi faktlaşır.

Peyğember heyatına dair ehvalatlar, dörd xelifenin terifi, qiyametin yaxınlaşmasını göstermek meqsedi ile yazılmış zahidane şeirler, dervişlerin ve dervişliyin fezilетleri haqqında medhiyyeler, İslam efsaneleri, huri ve qılmanlar, cennet ve cehennem haqqında revayetler bütün bunlar "Divani-hikmet"in esas mövzularını teşkil edib Yesevide dini dünyagörüşün hakim mövqeyinden ireli gelir.

Yunus İmre de İslam inancının, şeriet hökmlerinin mütleqliyini qebul edir. O da Mehemmed peyğember, onun meracı haqqında ilahiler söyleyir. Lakin mehz bu meqamlarda da onun yaradıcılığına mexsus ekstaz tonu itmir. O, bu mövzulardan da eyni böyük ilham ve sevincle söz açır. Buna göre de Yunus İmrede din özü poetikleşir. Poeziya Ehmed Yesevi üçün ideyaların tebliği vasitesi, Yunus üçün ise mistik yaşantıların ifade vasitesi idi.

"Fateh bir milletin ruh memarı" olan Yunus İmre Anadolu türkcesinin hakim edebi dil kimi formalaşmasında evezsiz xidmet gösterir. Ayrı-ayrı vaxtlarda Ehmed Feqih, Seyyad Hemze, Xoca Dehqani, Gülşehri, Aşıq Paşa kimi şairler Anadolu türkcesinin yüksek edebi dil seviyyesine qaldırmağa cehd etseler de, buna bütün gücü ile

de nail ola bilmirdiler. "Yunusun dilinde türkce en gözel şeklini almış, ölümsüz bir zefere çatmışdır. Dilimizin milli sesini, milli simasını ve dühasını o dövrde en yaxşı eks etdiren senetkar odur" (F.K. Teymurdaş).

Ehmed Yesevinin Türküstanda başladığı işi (İslam inancını, tesevvüf ideyalarını xalqın bütün tebeqelerinin ruhuna, beynine hopdurmaq) Yunus İmre Anadoluda davam etdirir. Bunun üçün Ehmed Yesevi teşkilati qurumun – teriqetin, ona daxil olan müridlerin kömeyine arxalanırdısa, Yunus İmre ilahi eşqden bulaq kimi çağlayan könül gücüne, poetik istedadına güvenirdi.

Anadolu Orta Asiyadan ferqli olaraq antik yunan, Roma medeniyyet eneneleri, erken xristianlıq görüşleri ile zengin idi. Tesevvüf kimi felsefi temayyüllü fikir cereyanının burada genişlenmesi üçün kifayet qeder münbit zemin mövcud idi. Ele belke de buna göre tesevvüfün asketlik, zahidlik merhelesinden vehdeti-vücudçuluğa keçidi türkün miqyasında Anadolu mütesevviflerinin fealiyyeti neticesinde baş verir. Türk tesevvüfünde asketlikden felsefi yöne doğru inkişaf bu fikir cereyanının senetle, poeziya ile İslam arasında elaqelerini möhkemlendirir.

**İstifade Edilmiş Edebiyyat**

Reyami Sefa. Mistisizm (Tesevvüf), İstanbul, Türkiye Ticaret Rostası metbeesi, 1961, 131 s.

Körpülü Fuad. Türk edebiyyatında ilk mütesevvifler, Ankara, Türk Tarix Qurumu Basımevi, 1976, 415 s.

Yunus İmre. Güldeste, Bakı, Yazıçı, 1992, 232 s.

Füzuli Bayat. Xoca Ehmed Yesevi ve xalq sufizminin bezi problemleri, Bakı, Ağrıdağ, 1997, 102 s.

Ehmed Yesevi. Divani-hikmet, Seçmeler (hazırlayan Kemal Eraslan), Ankara, Özkan matbaası, 1991, 498 s.

Triminqem Dj.S. Sufiyskie ordenı v İslame, Moskva, Hauka, 1989, 328 s.